"TƏSDİQ EDİRƏM"

Sumqayıt Dövlət Universitetinin

rektoru ____________ dos. R. Əzizov

"___" ______________ 2023-cü il

KARYERA VƏ MƏZUNLARLA İŞ MƏRKƏZİNİN

# ƏSASNAMƏSİ

Sumqayıt Dövlət Universitetinin

Elmi Şurasının 27.12. 2023-cü il tarixli

iclasının ( protokol № 3 ) qərarı ilə

təsdiq edilmişdir.

SUMQAYIT 2023

## 1. ÜMUMİ MÜDDƏALAR

1. Sumqayıt Dövlət Universitetinin Karyera və Məzunlarla İş Mərkəzi ( bundan sonra "Mərkəz") bu Əsasnamə ilə müəyyən edilən səlahiyyətlər çərçivəsində öz fəaliyyətini təşkil edir.

2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının Elm Və Təhsil Nazirliyinin əmr və sərəncamlarını, Sumqayıt Dövlət Universitetinin "Nizamnaməsi"-ni, SDU-nun rektorunun əmr və sərəncamlarını rəhbər tutur.

3. Mərkəz öz vəzifələrini və hüquqlarını həyata keçirərkən Dövlət Məşğulluq Agentliyi, Ali təhsil müəssisələri, qeyri-hökümət, yerli və beynəlxalq təşkilatlar və şirkətlərlə birgə fəaliyyətini təşkil edir.

4. Mərkəz öz fəaliyyətində SDU-nun fakültələri, kafedraları, struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

5. Mərkəz əməkdaşlıq və razılaşma yolu ilə şirkət, təşkilat və müəssisələrlə əlaqələr yaradır, tələbələrin, magistrantların, məzunların qeyd olunan müəssisələrə səfərlərini təşkil edir, onların işlə təmin edilməsi istiqamətində danışıqlar aparır.

## 2. MƏRKƏZİN MƏQSƏDİ

2.1. SDU-nu bitirmiş məzunların gələcək karyeralarına və işlə təmin olunmalarına köməklik göstərilməsi;

2.2. Tələbələrin təhsil aldıqları dövrdə digər universitetlərdə təhsil alan tələbələrlə əlaqələrinin yaradılması və karyera imkanlarının daha uğurlu qurmaq imkanı qazanmalarına dəstək olması;

2.3. SDU tələbələrinə və magistrantlarına uğurlu karyeranın planlaşdırılması prosesində müxtəlif sahələr üzrə təlimlərin təşkil edilməsi, iş imkanlarının araşdırılması ilə bağlı mütəxəssislərlə görüşlərin keçirilməsi;

2.4. SDU məzunlarının işlə təmin olunmasına köməklik göstərilməsi məqsədilə sənaye müəssisələri, banklar və digər təşkilatlarla birgə layihələrin işlənib hazırlanmasında əməkdaşlıq müqavilələrinin bağlanılması;

2.5. SDU tələbələrinə onların praktiki bacarıqların artırılması ilə əlaqədar maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;

2.6. Könüllü tələbə qruplarının iştirakı ilə bölgələrdə fəaliyyət göstərən şirkətlərin iş prosesini yaxından izləmək üçün ekskursiyaların təşkil edilməsi;

2.7. Məzunların təcrübə proqramlarında iştrakının təşkil edilməsi;

2.8. SDU-da təhsilalanlar və məzunlar üçün karyera günlərinin təşkil edilməsi;

2.9. Müəssisələrlə bağlanılan əməkdaşlıq müqaviləsində nəzərdə tutulan istiqamətlər üzrə fəaliyyətin icrası;

2.10. Tələbələrə gələcəkdə işlə bağlı təlimlərin və seminarların keçirilməsi;

2.11. Tələbələrə istehsalatda çalışan mütəxəssislərin iştirakı ilə birgə praktiki dərslərin təşkil edilməsi.

## 3. MƏRKƏZİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

3.1. SDU-nu bitirmiş bakalavriat, magistrant, doktorant və dissertantların elektron məlumat bazasının hazırlanması;

3.2. Mərkəzin sosial şəbəkələrinin yaradılması və idarə olunması;

3.3. Hər il gənclər üçün əmək yarmarkalarının təşkil edilməsi;

3.4. CV və motivasiya məktubunun hazırlanması üzrə təlimlərin keçirilməsi;

3.5. Uğur hekayəsi ilə fərqlənən şəxslərlə görüşlərin təşkil edilməsi;

3.6. Məsləhət xidmətlərinin göstərilməsi və müxtəlif sferalarda layihələrin hazırlanması;

3.7. Azərbaycan Respublikasında fəaliyyət göstərən karyera mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi;

3.8. Universitetlərdə fakültələrin, kafedraların reytinqinin müəyyən edilməsində məzunların işə qəbul olunması ən vacib göstəricilərdən biri hesab olunduğundan bu istiqamətdə zəruri vəzifələrin həyata keçirilməsini təmin etmək;

3.9. SDU-nun tələbələrinin praktiki bacarıq və vərdişlərinin artırılması, onlara məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, tədris və maarifləndirmə tədbirlərinin həyata keçirilməsini təşkil etmək;

3.10. Daimi yeniliyə can atan təhsilalanlar və məzunların karyerasının inkişafı üçün onlara dəstək olmaq, ixtisasartırma kursları təşkil etmək, əlavə təhsilalanlar üçün imkanların tanınmasına şərait yaratmaq;

3.11. Məzunların şəxsi məlumatlarının elektron məzun bazasının yaradılması və saxlanılmasına nəzarət etmək;

3.12. Tələbələrin məzun olduqları ildə öz kompetensiyalarına və ixtisaslarına uyğun əmək fəaliyyətinə başlamalarına köməklik göstərmək;

3.13. Əmək bazarının tələblərinə cavab verən təhsil proqramı üzrə təhsil alan tələbələrin sayının artırılmasına səy göstərmək;

3.14. Məzunlarla davamlı əlaqə sisteminin qurulması;

3.15. SDU məzunlarının Bakı, Sumqayıt şəhərləri və regionlar üzrə təşkilatlanmasını, hər regionda olan məzunlar üzrə rəhbərin ( feal məzunun ) müəyyənləşdirilməsi və tədricən Alumni hərakatının bərqərar edilməsi;

## 4. MƏRKƏZİN FUNKSİYALARI

4.1. Təhsilin bütün formaları üçün tədris planında nəzərdə tutulmuş istehsalat və digər təcrübələrin həyata keçirilməsinə nəzarət edir;

4.2. Təcrübə müddətində yaranan fors-major halların aradan qaldırılması istiqamətində tədbirlər həyata keçirir;

4.3. Bakalavriat və magistrantların yay iş təcrübələrini ikitərəfli razılaşma əsasında ödənişli, yaxud ödənişsiz qaydada müraciət etmiş müəssisələrin tələbinə uyğun olaraq təşkil edir;

4.4. Təcrübə və karyera təyinatlı arayışlar və s. sənədləri tələbələrin və məzunların müraciətləri əsasında hazırlayır və təsdiq edir;

4.5. Təcrübə rəhbərlərini kafedra müdirlərinin və dekanlığın iştirakı ilə müəyyən edir;

4.6. Hər təqvim ili təcrübə bazasında mövcud və bağlanmış sazişləri,memorandumları və müqavilələri yenidən nəzərdən keçirir, müddəti tamamlandıqda yenidən baxılmasını və imzalanmasını təşkil edir, cari təcrübələrin yerinə yetirilməsi üçün işçi proqramlarının hazırlanmasına nəzarət edir;

4.7. Elmi-tədqiqat, pedaqoji və istehsalat tərübələrinin həyata keçirilməsi üçün şərait yaradır, təcrübənin tədris proqramına uyğun müəyyən olunmuş müddətdə keçirilməsinə nəzarət edir.

## 5. MƏRKƏZİN HÜQUQLARI

5.1. Mərkəz öz funksiyalarını yerinə yetirməklə bağlı universitetin digər struktur bölmələrindən məlumat və informasiyalar alır;

5.2. İstehsalat, elmi-tədqiqat və s. təcrübələrinin təşkilində müxtəlif müəssisələrlə əlaqələr yaradır və müqavilələr imzalayır;

5.3. Təyinatlı arayışların, məktubların və s. sənədlərin hazırlanmasını həyata keçirir;

5.4. Mərkəzin fəaliyyəti üzrə monitorinq aparır;

5.5. Yerli və beynəlxalq universitetlərin təcrübələrini öyrənir və uyğun yeniliklərin universitetlərdə həyata keçirilməsi barəsində təkliflər veri;

5.6. Tələbələrin karyera inkişafı və fəaliyyətlərinin stimullaşdırılması, müasir tələblərə uyğun mexanizmlərin yaradılması, gənc kadrların öz karyeralarını qurma sahəsində müasir beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məqsədi ilə karyera yönümlü treninqlər təşkil edir.

## 6. MƏRKƏZİN İDARƏ OLUNMASI

6.1. Mərkəzin strukturu Universitetin rektoru tərəfindən təsdiq edilir. Mərkəz bilavasitə SDU-nun rektoruna tabedir və onun qarşısında hesabat verir.

6.2. Mərkəzin fəaliyyətinə rektor tərəfindən vəzifəyə təyin edilən mərkəzin direktoru rəhbərlik edir. Mərkəzin direktoru əsasnaməyə uyğun olaraq mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsinə cavabdehdir.

6.3.Mərkəzin direktoru tabeliyində olan əməkdaşlar arasında iş bölgüsünü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

6.4.Mərkəzə həvalə olunmuş vəzifələrin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

6.5.Mərkəz əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün universitetin rektoruna təqdimatlar verir;

6.6.Mərkəzin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində universitetin digər strukturlarından zəruri məlumat və sənədlər alır;

6.7.Təcrübə və karyera ilə bağlı keçirilən bütün yerli və beynəlxalq tədbirlərdə iştirak edir;

6.8.Fakültə rəhbərləri və kafedra müdirləri ilə görüşlər keçirir və uyğun təlimatlandırma işləri aparır;

6.9.Təcrübələrin həyata keçirilməsi üçün müvafiq şərait yaradır və keçirilməsinə nəzarət edir;

6.10.Yerli və beynəlxalq universitetlərin təcrübələrini öyrənir;

6.11.Mərkəzdə fəaliyyət göstərən əməkdaşların müasir informasiya-kommunikasiya texnologiyaları və xarici dil biliklərinə sahib olmalarına təsviq edir.

## 7.Mərkəzin işçi heyəti.

7.1. Mərkəzin direktoru – 1 ştat.

7.2. Böyük mütəxəssis – 1 ştat.

7.3. Mütəxəssis – 2 ştat.

7.4. Metodist – 1 ştat.

7.5. Operator – 1 ştat.

MƏRKƏZİN ştat cədvəli və işçi heyətinin tərkibi mövcud qanunvericiliyə əsasən SDU-nun rektoru tərəfindən müəyyənləşdirilir.

## 8. MƏRKƏZİN YARADILMASI VƏ LƏĞV EDİLMƏSİ

8.1. Mərkəz Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının qərarı əsasında Rektorun əmri ilə yaradılır və ləğv edilir.

Bu Əsasnaməyə dəyişikliklər və əlavələr Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aparılır.

**Tədrisin təşkili və təlim texnologiyaları üzre**

**prorektor:** **Talıbov N.H**

**Karyera və Məzunlarla İş Mərkəzinin Direktoru:** **Əmirbəyova N.S**

**Baş hüquqşünas :** **dos. Həsənov Ə.A**